**Moskva şəhərində "MDB ölkələrinin gəncləri" adlı statistik məcmuənin hazırlanması və nəşr edilməsi ilə əlaqədar keçirilmiş müşavirənin yekunları haqqında**




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Xidmət statistikası və Əhali və gender statistikası şöbələrinin müdirləri Elçin Hacı və Rza Allahverdiyev cari ilin noyabr ayının 14-15 tarixlərində "MDB ölkələrinin gəncləri" adlı statistik məcmuənin hazırlanması və nəşr edilməsi ilə əlaqədar MDB Statistika Komitəsi tərəfindən təşkil edilmiş müşavirədə iştirak etmişlər. Müşavirədə MDB Statistika Komitəsinin ekspertləri və milli statistika orqanlarının mütəxəssisləri iştirak etmişlər.

Müşavirə 3 sessiyadan ibarət olmuşdur.

Birinci sessiyada ölkələrdə gənclər sahəsində siyasətin aparılması, bu sahədə statistik məlumatların hazırlanması və yayılması, gələcək perspektivlərə dair məruzələr edilmişdir. Nümayəndələrimiz bu sessiyada təklif edilmiş mövzu üzrə təqdimatla çıxış etmişlər. Təqdimatda Azərbaycanda gənclər sahəsində siyasətin gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında, tarixi-mədəni irsimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında onların intellektual və yaradıcı potensiallarının ümummilli məsələlərin həllinə yönəldilməsi prinsipləri əsasında formalaşdırılması haqqında məlumat verilərək qeyd edilmişdir ki, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununa 2007-ci ildə edilmiş dəyişikliklər və əlavələrə əsasən ölkədə gənclərin yaş həddi 14-29 yaş qəbul edilmişdir.

Bununla yanaşı, 2007-ci ilin Azərbaycanda Gənclər ili elan edilməsi, ölkədə gəncliyin inkişafının təmin edilməsi məqsədilə 2011-ci ildə qəbul edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında məlumat verilmişdir.

İkinci sessiya bütövlüklə "MDB ölkələrinin gəncləri" adlı statistik məcmuənin layihəsinin müzakirəsinə həsr olunmuşdur. Qeyd olunmuşdur ki, statistik məcmuənin hazırlanmasının əsas məqsədi MDB məkanında gənclərin sosial-iqtisadi vəziyyəti haqqında məlumatların geniş ictimaiyyətə çatdırılmasından ibarətdir.

Müşavirə zamanı məcmuəyə daxil edilmiş hər bir cədvəl və göstərici üzrə müzakirələr aparılmış, göstəricilər üzrə məlumatların ölkələrdə mövcudluğu səviyyəsi müəyyənləşdirilmiş, həmçinin məcmuənin təkmilləşdirilməsinə dair təkliflər verilmişdir.

Üçüncü sessiya isə müşavirənin yekunlarına həsr olunmuşdur.